dəqiq uyğunluğunu müəyyən etməlidir. Bilirik ki, rüblük hesabatlar illik hesabatlara uyğun olmalıdır, bunlar arasında müəyyən fərqlər yaranarsa, o zaman auditor rüblük və illik hesabatların tərtib olunması qaydalarından istifadəyə istinad edib, ondan istifadə etməlidir.

Ədəbiyyat:


1. Abbasov İ.M., Məmmədov İ.A., Cabbarov A.S. "Mühasibat uçotu (sahələr üzrə)" Dərslik. Bakı, 2017
2. Ə.A.Sadıqov və b. "Mühasibat uçotu" , Dərslik, Bakı, 2012.
3. S. Səbzəliyev Maliyyə hesabatı. Dərs vəsaiti. Bakı 2018.


## AZƏRBAYCANDA EMAL SƏNAYESİ SAHƏLƏRİNDƏ VERGİLƏRİN STİMULLAŞDIRILMASI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI


*Niftəliyev Nazim Fazil oğlu*
*Mingəçevir Dövlət Universiteti*



Tədqiqat işi Azərbaycanın emal sənayesi sahələrində vergilərin stimullaşdırılması mexanizminin təkmilləşdirilməsinin araşdırılmasından ibarətdir. Bunun üçün ölkənin emal sənayesi sahələrinin xarakteriztikası verilmiş və onların inkişafını ləngidən amillər açıqlanmışdır. Vergilərin stimullaşdırılması hesabına emal sənayesi sahələrinin inkişaf etdirilməsi perspektivləri verilmişdir. Ölkədə mövcud olan vergilərin daha stimullaşdırıcı formada təkmilləşdirilməsi, vergi mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində imkanlara baxılmışdır. Azərbaycanın emal sənayesi sahələrində fəaliyyətin təşkili məqsədilə vergilərin stimullaşdırıcı rolunun ön plana çıxarılmasının vacibliyi diqqətə çatdırılmışdır. Yaxın perspektivdə baxılan problemlər üzrə bir sıra tövsiyələr irəli sürülmüş və təkliflər verilmişdir.


Fikrimizcə, vergi stimullaşdırılmasının ən səmərəli yollarından biri vergi güzəştlərinin verilməsidir, belə ki vergi güzəştləri hər bir vergi üzrə qanunvericiliklə müəyyən edilir və ümummilli vergi siyasətinin tərkib hissəsidir. Onlar müəssisələrə müəyyən vergi ödənişlərini azaltmağa imkan verir. Vergi güzəştlərinin verilməsi müvafiq prinsiplər əsasında həyata keçirilməlidir: məqsədyönlülük, qənaətcillik, qanunvericiliklə təsdiqlənmə, təminatın vahidliyi, tətbiqin könüllü olması. Bütövlükdə vergi güzəştlərinin verilməsi məhsulların və müəssisələrin rəqabət qabiliyyətinin artırılmasına yönəldilməli və müəssisələr dövlətin ehtiyac duyduğu məhsulların istehsalında, dövlət üçün prioritet olan sənaye və regionların inkişafında maraqlı olduqda səmərəli olur. Mövcud qanunvericiliyə əsasən, güzəştlər icra hakimiyyəti orqanları və vergi orqanları tərəfindən öz səlahiyyətləri daxilində verilir. Onları təmin edərkən bir sıra amillər nəzərə alınır ki, bunlardan başlıcası vergilərin daxil olma mənbələri, vergitutma obyektinin ölçüsü; vergitutma obyektinin mülkiyyət forması; vergi ödəyicisinin kateqoriyası; məhsul növü; büdcə kəsirinin ölçüsü; iqtisadi inkişafda prioritetlər; sosial xərclər üçün mümkün təsirlər və digərləridir.

Vergi güzəştləri formasında verilə bilər: vergidən və yığımdan əvvəl vergitutma bazasını azaldan vergi endirimi; vergi və yığımdan sonra vergi öhdəliyinin azaldılması; vergi və rüsumun azaldılmış dərəcəsinin müəyyənləşdirilməsi; vergi və rüsumlardan azad olunma. Digər tərəfdən, vergi güzəştlərinin növlərinin siyahısı qanunla müəyyənləşdirilir. Ən mühüm vergi güzəştləri aşağıdakılardır: vergi ödəyicilərinin ayrıayrı kateqoriyalarının vergidən azad edilməsi; vergitutma obyektinin uyğunlaşdırılması (azaldılması); vergitutma bazasında düzəlişlər edilməsi (azalmalar); vergi dərəcələrinin diferensiallaşdırılması; vergi öhdəliyinin azaldılması; vergi uçotunun xüsusi üsullarından istifadə; vergi müddətinin uzadılması; vergilərin möhlətlə və hissə-hissə ödənilməsi. Eyni zamanda, qeyd edək ki, Azərbaycanda mövcud növ vergi güzəştləri əsasən bunlardır: vergitutma obyektinin bəzi elementlərinin vergidən azad edilməsi; müəyyən kateqoriyalı vergi ödəyicilərinin vergidən azad edilməsi; vergi dərəcələrinin aşağı salınması; məqsədli vergi güzəştləri və digər vergi güzəştləri. Güzəştlər həm daimi, həm də məhdud müddətə verilir və həm də təkcə müəyyən bir kateqoriya insanlara deyil, bütün vergi ödəyicilərinə şamil edilir. Güzəştlər vergitutma bazasının azaldılmasına yönəlib. Mənfəət vergisinə gəldikdə, güzəştlər gəlirlə deyil, vergi ödəyicisinin xərcləri ilə əlaqədardır və güzəştlər vergitutmanın nəticələrə təsiri əsasında müəyyən edilən məhdud və qeyri-məhdud növlərə bölünə bilər. Vergi güzəştləri vergi sisteminin öz tənzimləyici funksiyasını yerinə yetirməsini təmin edir. Eyni zamanda, onların qeyri-rasional istifadəsi vergitutmanın bərabərlik və ədalətlilik prinsipini pozaraq, fiziki və ya hüquqi şəxslər üçün rəqabət üstünlükləri yaradır. Qeyd edək ki, vergi stimullaşdırılmasının metod və üsulları müəyyənləşdirilərkən və tətbiq edilərkən vergilərin fiskal və tənzimləyici funksiyaları arasında paritetin saxlanılması vacibdir. Bu funksiyalar arasında tarazlığın əldə edilməsi vergi dərəcələrinin diferensiallaşdırılması və optimallaşdırılması ilə özünü göstərir. Bu proses dövlət xərclərinin optimallaşdırılmasını və real iqtisadiyyatın imkanlarını, xüsusən də vergi ödəyicilərinin vergi tutumları ilə əlaqənin qurulmasını nəzərdə tutur. Vergi stimullaşdırılması həm cari, həm də strateji vergi planlaşdırmasının reallaşdırılmasını təmin edir, ödəyicilərin fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Deməli, vergi stimullaşdırılması metodlarının köməyi ilə vergi ödəyicilərinin investisiya fəaliyyətinə təsir göstərmək və xarici investisiyaları cəlb etmək mümkündür, çünki dövlətdə əlverişli investisiya mühitinin yaradılmasında həlledici rol oynayan vergi komponentidir. Bunlarla bərabər, investisiya fəaliyyətinin stimullaşdırılmasının effektiv üsulu investisiya vergisi kreditidir. Bir tərəfdən, bu cür vergi güzəştlərinin verilməsi dövlət üçün sosial və iqtisadi əhəmiyyətli layihələrə yönəldilməlidir. Belə layihələrin tətbiqindən əldə edilən mənfəətin vergi yükünü azaltmaqla yanaşı, həm də investorlara, o cümlədən xarici investorlara onların sərmayələrinin toxunulmazlığına və qaytarılmasına uzunmüddətli dövlət zəmanəti verilməlidir. Dövlət həmçinin bu fəaliyyət sahəsinin inkişafı üçün şərait yaratmağı və xarici amillərin təsirini minimuma endirməyi öhdəsinə götürür (bazar konyunkturasının və ya siyasi vəziyyətin dəyişməsi və s.). Digər tərəfdən, investisiya vergisi krediti vergi qanunvericiliyində daimi dəyişikliklərdən əziyyət çəkən və dövlət dəstəyinə ehtiyacı olan ölkədə sahibkarlığın inkişafına təkan verən mühüm və səmərəli üsuldur.

İnvestisiya vergisi kreditinin əsas vəzifəsi sahibkarlıq subyektlərinin investisiya və innovasiya fəaliyyətini stimullaşdırmaqdan ibarətdir ki, bu da ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinə kömək edəcəkdir. Belə vergi güzəştlərinin xaricdə tətbiqi təcrübəsi göstərir ki, sahibkarlıq subyektlərinin investisiya və innovasiya fəaliyyəti ilə bağlı xərclərinin əhəmiyyətli hissəsi dövlət tərəfindən kompensasiya edilir. İnkişaf etmiş ölkələrdə investisiya vergisi güzəştlərindən və ya investisiya vergisi kreditlərindən istifadə sahibkarlara öz avadanlıq parkını genişləndirməyə və ya köhnəlmiş avadanlığı əvəz etməyə imkan verir və onları yenidən avadanlıq istehsalına investisiya qoymağa təşviq edir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsindən belə nəticə çıxır ki, müəssisələr üçün investisiya vergisi kreditləri şəklində gəlir vergisi güzəştləri vergi yükünün azaldılmasına və investisiya proseslərinin intensivləşməsinə kömək edir. Xaricdə investisiya vergisi güzəştləri arasında vahid investisiya fondlarının yaradılması təcrübəsi geniş yayılmışdır və analoji fondlar əsasən iki növə bölünür: açıq - bu fondlardakı səhmlər investordan tələb əsasında geri alınır və interaktiv - bu fondlarda paylar ildə bir dəfə ödənilir və onların iqtisadi üstünlüyü əmlakın vergiyə cəlb edilməsidir. Vergi güzəştlərinin effektivliyinin mühüm şərti onların məqsədyönlülüyünün dəqiq müəyyənləşdirilməsidir. Milli məhsulların istehsalını stimullaşdırmaq və bazarda rəqabət qabiliyyətini artırmaq məqsədilə istər yerli, istərsə də əksər xarici ölkələrin emal müəssisələrinə vergi güzəştləri verilir. Bundan əlavə, bu cür güzəştlər emal müəssisələrinə nəinki istehsal qurmağa və bazarda mövqelərini möhkəmləndirməyə, həm də çətin iqtisadi şəraitdə ayaqda qalmağa imkan verir. Azərbaycanda emal müəssisələrinin bazarda mövqelərinin müəyyənləşdirilməsi üçün istehsal etdikləri həcminin müqayisəli təhlilinin aparılması böyük maraq doğurur. Emal sənayesi üzrə ən çox 2020-ci ildə məhsul istehsal olunmuşdur. Bu tədqiq olunan dövrlə üzrə ən yüksək göstəricidir. 2020-ci ildə bu rəqəm 11848,3 milyon manat olub ki, bu da 2010-cu ilə görə 2,1 dəfə, 2015-ci ilə görə 50,4%%, 2018-ci ilə görə 13,2%, 2019-cu ilə görə isə 6,0% çoxdur. 2020-ci ildə ölkə üzrə ÜDM-in həcmi 72578,1 milyon manat təşkil etdiyindən, emal sənayesinin ÜDM-də xüsusi çəkisi 16,3% olmuşdur. Ölkə üzrə istehsal olunan sənaye məhsulunun həcmində isə bu sahənin payı 31,8% təşkil etmişdir [2].

Hazırda emal sənaye məhsullarının ÜDM-də və ümumi sənaye məhsulunun həcmində xüsusi çəkisinin artırılması əsas prioritetlərdəndir. Bunun üçün emal sənaye müəssisələrinin fəaliyyəti stimullaşdırılmalıdır. Dövlət tərəfindən, emal sənaye istehsalının stimullaşdırılması üzrə səmərəli tədbirlərə aşağıdakılar daxil edilə bilər: müəssisə və layihələrə informasiya, konsaltinq və maliyyə dəstəyi; elmi, texniki və innovativ fəaliyyətin təşviqi; insan resurslarının inkişafı. Yuxarıda göstərilən tədbirlər sırasında daha çox üstünlük verilən dövlət tərəfindən maliyyə dəstəyi formalarıdır ki, bunlar subsidiyalar, büdcə investisiyaları, kreditlər, vergi güzəştləri, dövlət və bələdiyyə zəmanətləri, sənayenin inkişafı üçün dövlət fondlarından maliyyə yardımı və digərləridir. Vergi güzəştləri sistemi birbaşa investisiyaların axınını stimullaşdırır, yeni iş yerlərinin yaradılmasına, bazarın yüksək keyfiyyətli yerli məhsullarla dolmasına və büdcəyə vergi daxilolmalarının artmasına kömək edir. Nəticə Beləliklə, emal sənaye istehsalının vergi stimullaşdırılması ilə bağlı bir sıra

məqamların və amillərin nəzərə alınmasını vacib hesab edirik: dövlət maliyyə dəstəyi üçün obyektlər seçilərkən prioritet inkişaf sahələrində fəaliyyət göstərən, bütövlükdə qısa müddətdə dayanıqlı artımı və rəqabət qabiliyyətini artırmağa qadir olan innovativ yönümlü sənaye müəssisələrinə üstünlük verməlidir; dövlətin biznesə birbaşa təsir üsulları ilə yanaşı, dolayı tədbirlərə, xüsusən də sənaye müəssisələrinin inkişafı üçün vergi stimullaşdırılması alətlərinə çox diqqət yetirilməlidir; emal sənayesinin inkişafının stimullaşdırılması kontekstində vergi qanunvericiliyi ölkənin milli inkişaf strategiyasının parametrləri ilə əlaqələndirilməli, milli və qlobal iqtisadiyyatda mövcud proseslərə uyğun olaraq çevik və adekvat olmalıdır. sənayenin inkişafı üçün vergi stimullaşdırılması geniş spektrli effektiv alətləri əhatə etməlidir; emal müəssisələrinin vergi stimullarının əsas alətləri olan sürətləndirilmiş amortizasiya sxemlərinə, investisiya vergisi kreditinə və s. diqqət yetirilməlidir.

Bunlarla bərabər, hesab edirik ki, bir qrup vergi stimullaşdırma alətləri emal sənaye sahələrinin inkişafına və məhsul istehsalının artırılmasına əlavə imkanlar yarada bilər: vergi stimullaşdırılmasının iqtisadiyyata təsirinin monitorinqi mexanizminin olması onların səmərəli tətbiqinə şərait yaradan amillərdəndir. Bu, vergi stimullaşdırılmasının tətbiqi ilə bağlı konkret nəticələri və onların tətbiqi zamanı iqtisadiyyat və büdcə üçün iqtisadi nəticələri müəyyənləşdirməyə imkan verir, digər stimullaşdırma alətlərinin hazırlanmasını, onların icrasının aşkarlığını və şəffaflığını asanlaşdırır; modernləşmə üzrə stimulların səmərəliliyinin yüksək olmasının səbəblərindən biri bu stimulların müəyyən şərtlər çərçivəsində verilməsidir. Belə olan halda güzəşt alan müəssisə məhsulun keyfiyyətinin yaxşılaşdırılması, həcminin və ya ixracının artırılması üzrə öhdəlik daşıyır və bu onun məsuliyyət hissini artırır; pul-kredit, valyuta və sənaye siyasətinin həyata keçirilməsi fiskal stimullara modernləşmə proseslərini həyata keçirmək və səmərəli nəticələr əldə etmək imkanı verir. Bu islahatların həyata keçirilməsi səlahiyyətli dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsini tələb edir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. URL: https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi .

3. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.

## БАСҚАРУ ЕСЕБІНДЕГІ БЮДЖЕТТЕУ

*Альжанова А.З., э.ғ.м., аға оқытушы*

*Л.Б.Гончаров атындағы Қазақ автомобиль-жол институты*

Бюджет - жорамалданған әрекеттерді орындауға дейін жасалатын қаржылық құжат болып табылады. Осы әрекет болашақ қаржылық операцияның болжамы ретінде саналып, содан соң ол бюджеттеу кезеңіне өтеді. Басқару есебіндегі бюджеттеуді жоспарлау процесі деп түсіндіріледі. Жоспарлау процессі бақылау процесімен тығыз байланысты.Жоспарлау мен бақылау ұйымды басқарудың ең қажет атрибуттары болып табылады.